

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 168 (21.069)

4 sentyabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 3-də rəsmi qarşılanma mərasimi olub.

* * *

Sentyabrın 3-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

* * *

Sentyabrın 3-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

* * *

Həmin gün geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatla çıxış ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sentyabrın 3-də ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi ziyafət verilib.

Dövlət başçıları ziyafətdə çıxış ediblər.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Heydər Əliyev” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı oxundu. Azərbaycan Prezidenti İlham Əliyev “Heydər Əliyev” ordenini Türkiyənin Prezidenti

## Şagirdlərə məktəbli ləvazimatları verilmişdir



*Muxtar respublikamızda gələcəyimiz olan uşaqlar, o cümlədən sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar daim dövlətimizin diqqət və qayğısı əhatəsindədirlər. Onların sağlam böyümələri, biliklərə yiyələnmələri, intellektual inkişafı, xüsusi istedada malik olanların aşkara çıxarılması, milli-mənəvi dəyərlərə sadiq vətənpərvər şəxsiyyət kimi formalaşması istiqamətində davamlı tədbirlər həyata keçirilir.*

Qeyd olunan tədbirlərin davamı olaraq, 15 sentyabr – Bilik Günü münasibətilə Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, habelə aztəminatlı ailələrin uşaqları ilə görüş keçirilmişdir.

Təhsil Nazirliyində təşkil olunan tədbiri giriş sözü ilə təhsil naziri Piri Nağıyev açaraq dövlətimizin təhsilə, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil almalarına göstərdiyi diqqət və qayğıdan danışmışdır. Əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıdan söz açmış və şagirdləri qarşıdan gələn Bilik Günü münasibətilə təbrik edərək onlara təhsildə müvəffəqiyyətlər arzulamışlar.

Sonda aztəminatlı, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş məktəbli uşaqlara və sağlamlıq imkanları məhdud şagirdlərə məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları verilmişdir.

Tədbirdə iştirak edən sağlamlıq imkanları məhdud uşaqların valideynləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, muxtar respublika üzrə aztəminatlı, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş məktəbli uşaqlara və sağlamlıq imkanları məhdud şagirdlərə məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları təqdim olunmuşdur. Təhsil Nazirliyi hər iki valideynini itirmiş 42, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 239 sağlamlıq imkanları məhdud, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi isə 60 uşağı təhsil sovqatı ilə sevindirmişdir.

Onu da deyək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”na əsasən, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilmədikləri üçün distant tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud 19 nəfər uşağa məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları evlərində təqdim olunmuşdur.

## “Muxtariyyət ili”ndə bağlar diyarının quruculuq xəritəsi bir qədər də genişlənib

***Regionumuzun ən ucqar dağ və sərhəd kəndləri də daxil olmaqla, qədim diyarımızın hər bir guşəsi bu gün müasir yaşayış məntəqəsi timsalındadır. Davamlı xarakter alan hərtərəfli dövlət qayğısı hesabına Ordubad rayonu da bu gün muxtar respublikanın yeni inkişaf mərhələsinin ön sıralarındadır.***

Bölgədə elə bir yaşayış məntəqəsi tapmaq olmaz ki, orada quruculuq nəfəsi duyulmasın. Onu da xüsusi vurğulamaq lazımdır ki, rayonun relyefinin mürəkkəbliyi burada aparılan quruculuq işlərində çalışanları müəyyən çətinliklər qarşısında qoysa da, qurub-yaratmaq əzmi həmin çətinliklərə qalib gəlir. Görülən işlər isə, təbii ki, mövcud problemləri həll etməklə yanaşı, insanların məşğulluğunun təmin edilməsinə də müsbət təsirini göstərir, onların qurub-yaratmaq əzmini daha da gücləndirir. Əvvəlki illərdə olduğu kimi, cari ildə də rayonda bir neçə ünvanda belə tədbirlər davam etdirilir.

Güclü maarifçilik ənənələri olan Ordubad şəhər 3 nömrəli tam orta məktəb üçün yeni binanın inşasına başlanılması həm məktəbin pedaqoji kollektivinin, həm də valideynlərin böyük sevincinə səbəb olub. 774 şagird yerlik məktəb binasının tikintisi “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. Obyekt zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq. Hazırda tikinti işləri dördüncü mərtəbədə davam etdirilir.Yeni məktəb binasında laboratoriyalar, hərbi kabinə, 48 sinif otağı, 4 elektron lövhəli sinif, 4 kompüter sinfi,165 kvadratmetr sahəsi olan idman zalı, 2 müəllimlər otağı, 2 bufet müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Rayonun Aşağı Əylis kəndində də yeni məktəb binası tikilir. Bu obyektlərin tikintisi başa çatdıqdan sonra bölgədə yeni bina ilə təmin olunan təhsil ocaqlarının sayı 23-ə çatacaq. Məlumat üçün bildirək ki, Aşağı Əylis kənd tam orta məktəbinin binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Binada son tamamlama işləri görülür, ərazidə abadlıq işləri aparılır.

Rayonda aparılan quruculuq tədbirləri məktəb tikintiləri ilə məhdudlaşmır. Elə adıçəkilən yaşayış məntəqəsində 2 mərtəbədən ibarət kənd mərkəzi inşa olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları kəndə xüsusi yaraşıq verəcək hər iki obyektin tikintisində fəallıq göstərərək gördükləri işin keyfiyyətinə ciddi diqqət yetiriblər. Bu obyektdə də son tamamlama işləri görülür. Adıçəkilən tikinti təşkilatının bir qrup inşaatçısı isə Ordubad şəhərindəki 34 nömrəli yaşayış binasının əsaslı təmiri ilə məşğuldur. Binanın köhnə suvaq qatı sökülərək yenisi çəkilir, dam örtüyü dəyişdirilir, balkonlar işlənir, pəncərələr daha keyfiyyətliləri ilə əvəz olunur.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin rəisi Əkrəm Salmanovla söhbət zamanı onu da öyrəndik ki, idarənin bir qrup inşaatçısı ucqar dağ kəndi Nürgütdə kənd mərkəzinin inşası və Ordubad şəhərində rayon Suvarma Sistemləri İdarəsi binasının təmiri ilə məşğuldur. Bu tədbirlərdə də idarənin inşaatçıları keyfiyyət amilinə ciddi diqqət yetirirlər. Qeyd edək ki, quruculuq tədbirlərindən rayonun Vergilər Şöbəsinə də pay düşüb. Binanın əsaslı təmiri başa çatdırılıb. Bu iş “Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən həyata keçirilib.

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, 2014-cü ilin ilk 8 ayı ərzində nazirlik və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 89 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb. Həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 26 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 28 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb. Operativ vergi nəzarəti tədbirləri zamanı 12 nəfərin “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 14 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb edilən fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olması, 3 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib.

Məlumatda o da bildirilir ki, keçirilən nəzarət tədbirləri zamanı 6 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanıb və həmin şəxslər barəsində qanuna müvafiq tədbirlər görülüb. Həmin şəxslərdən dördünün fəaliyyəti şəxsi nəqliyyat vasitələrindən istifadə etməklə sərnişindaşıma xidməti, 2 şəxsin fəaliyyəti isə səyyar qaydada qanunsuz olaraq ticarət fəaliyyəti göstərməsi olub. Aparılan operativ nəzarət tədbirləri zamanı tətbiq edilmiş 11770,0 manat inzibati cərimə və maliyyə sanksiyasının tamamilə büdcəyə ödənilməsi təmin edilib.

Qeyd olunan dövr ərzində 50 obyektdə nəzarət-kassa aparatlarının quraşdırılması işi aparılıb. Həmçinin bəhs olunan dövrdə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 13 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidələr zamanı müşahidəyədək olan dövriyyələr ilə müqayisədə 23676,2 manat dövriyyə artımına nail olunub. Bu da hər bir vergi ödəyicisinə məxsus hər bir obyekt üzrə orta hesabla 36,4 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Əlavə olaraq görülən tədbirlər nəticəsində 2014-cü ilin 8 ayı ərzində bank orqanları tərəfindən ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarda qoyulmuş 469 ədəd POS-terminalın vergi orqanlarında qeydiyyatdan keçirilməsi təmin olunub.

Qeyd olunan dövr ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən, işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi diqqətdə saxlanılıb. Əməkhaqlarının əmək müqaviləsində real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmalar davam etdirilir.

**Xəbərlər şöbəsi**

*Tanıdıqlarımız haqqında bilmədiklərimiz*

# Uzaq düşən gəmilərin kapitanları – Şahtaxtlılar



*Şahtaxtinskilər Muzeyinin açılışında*



*Behbud ağa Şahtaxtinski*



*Əbülfət ağa Şahtaxtinski*

### *Behbud ağaya, Əliqulu Qəmküsara atılan güllələr*

Nəslin başqa bir məşhur nümayəndəsi diplomat Behbud ağa Şahtaxtinski də böyük müasiri Nəriman Nərimanovun taleyini yaşadı. Onun guya 1924-cü il mayın 30-da Tiflisdə başına 4 güllə sıxaraq "intihar" etməsi haqda söylənənlər heç bir məntiqə uyğun gəlmir. Çünki o mürəkkəb zamanda – 1921-ci il martın 1-də Leninə məktub yazaraq Zəngəzur, Qarabağ və Naxçıvanın Azərbaycana məxsusluğunu sübut etməyə çalışan, hər cür əziyyətə qatlaşmağı bacaran Behbud ağanın ölümə belə asanlıqla təslim olması mümkün deyildi! AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi *Musa Quliyev* 1929-cu ildə qələmə alınan, son dövrlər üzə çıxan *"Naxçıvan ölkəsində gizli partiya işinin yaranması tarixindən"* adlı bir sənədə əsaslanaraq bildirir ki, Behbud ağanı öldürüblər: o, Naxçıvanda və Tiflisdə meydan sulayan daşnak terrorçularının qurbanı olub. Ermənilər Qars müqaviləsini heç cür Behbud ağaya bağışlaya bilmirdilər. Yəqin ki, Behbud ağanı Bakıdan Tiflisə də ona görə apardılar ki, asanlıqla öldürə bilsinlər. Kəskin nifrətlə qələmə alınan bu yazıda, M.Quliyevin qeyd etdiyi kimi, hər şey bir cümlədə ortalığa çıxır: *"за что и поплатился своей жизнью"* (bu, ona həyatı bahasına başa gəldi).

XX əsr Azərbaycan ictimai fikir tarixində satirik şair, istedadlı jurnalist, o dövrkü mətbuatda daha çox *"Xadimi-millət"* imzası ilə çıxış edən, həm də "Ölülər" pyesində Şeyx Nəsrullah rolunun təkrarolunmaz ifaçısı, ömrü boyu saysız təqib və təhqirlərə məruz qalan Əliqulu Qəmküsarın 1919-cu il mart ayının 4-də axşam evinə qayıdarkən Tiflisdə xaincəsinə qətlə yetirilməsi də erməni millətçilərinə məxsus həmin dəst-xətti təsdiq edir. *Cəlil Məmmədquluzadə* qələm dostunun itkisini belə ifadə edirdi: *"Təəssüflər edirəm ki, Əliqulu Nəcəfov kimi həqiqi və ləzzətli əhli-qələm və şairimiz bu dünyadan vaxtsız getdi və məcmuəmizi öz köməyindən məhrum qoydu"*. *Əbdürrəhim bəy Haqverdiyev* bu münasibətlə yazırdı: *"Əliqulu Nəcəfzadəyə dəyən güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi"*.

Şahtaxtlılar nəslinə qarşı təqiblər və təzyiqlər isə Behbud ağanın qanlı ölümü ilə bitmədi. Qətlə yetirilən Behbud ağanın İsveçdə mühəndis təhsili alan qardaşı Əhməd ağa 1937-ci ildə həbs edildi. Digər qardaşı Məmməd ağa Şahtaxtıda doğulsa da, öz ömrünü qürbətdə – Fransada keçirməli oldu. O, məşhur diplomat *Ələsgər Şahtaxtlının – Aleksis Şahtaxtinski*nin ata babası idi.

Xalq rəssamı Oqtay Sadıqzadənin xatirələrindən: *"Elmiranın babası Baxşəli ağa Şahtaxtinski Naxçıvanda dövlət qulluqçusu olub. Nüfuzu, sözükeçərliliyi, vətənpərvərliyi erməniləri ona düşmən eləyib. Heç Baxşəli ağa da düşmən qarşısından qorxub-çəkinən oğullardan olmayıb. Ermənilər bir gün fürsət tapıb onu iki oğluyla qətlə yetiriblər. Baxşəli ağanın sağ qalan dörd oğlunun hamısı sonralar ayrı-ayrı sahələrdə tanınıb. Elmiranın atası Həbibulla bəy Şahtaxtinski məşhur alim idi. Anası Leyla isə yarıtiflisli, yarıqarabağlı idi. O da şöhrətli bir nəslin davamçısıydı..."*

### *Mərd mübarizlər diyarındakı Şahtaxtinskilər Muzeyi*

Neçə ildən sonra *Məhəmməd ağa Şahtaxtlı* ilə əlaqədar hazırlanan filmin çəkilişləri üçün gəldiyimiz Naxçıvanı, sözün həqiqi mənasında, tanımaq olmur. Naxçıvan böyük bir ev kimi gözəl zövq və ürəklə qurulmaqdadır. Bu yurdun yolları və insanları bir-birinə çox bənzəyir – düz, rahat, istiqanlı və inamlı. Burada, bəlkə də, çoxdan həsrətində olduğumuz bir hissi də yaşadıq: səfərimizə verilən qiymətə və ən yüksək səviyyədə göstərilən diqqətə görə Naxçıvanda hər kəsə minnətdarıq. Bir faktı da qeyd etməyə dəyər: Azərbaycandakı inkişafı daha yaxşı görmək üçün mütləq bu qədim diyarda olmaq lazımdır. Hamar, rahat, işıqlı, yaşıllığa bürünmüş yollar, müasirliklə qədimliyi özündə birləşdirən evlər, kəndlərdəki yeni məktəb binaları, Naxçıvan televiziyasının keçmişlə bu gün arasında körpü salmağa çalışan gənc, istedadlı kollektivi və daha nələr, nələr... Əshabi-Kəhfdə, Arpaçayda, Batabatda, Duzdağda aparılan abadlıq işləri və gördüklərimizi, yəqin ki, çətin unudaq. Xüsusilə yaşıllıqların salınması hər kəsin ürəyincədir.

( Əvvəli qəzetimizin 3 sentyabr tarixli sayında)



*Oqtay Sadıqzadə*



*Şahtaxtinskilər Muzeyi*

Vaxtilə 0,6 faiz olan yaşıllıqların həcmi bu gün 12 faizi adlayıb. Bu yaşıllıqlara, əkilənlərə qayğı isə hər addımda duyulmaqdadır. Belə bir qayğını Naxçıvanın, bütövlükdə, Azərbaycanın adını yaşadan insanlara, tarixi abidələrimizə münasibətdə də aydın görmək mümkündür.

Bu mənada Naxçıvanda Şahtaxtlılar irsi dövlət səviyyəsində həm qorunur, həm də sevə-sevə öyrənilir. Hazırda Kəngərli rayonunun Şahtaxtı kəndində yaradılan *Şahtaxtinskilər Muzeyi* dünyaya səpələnmiş bu böyük nəslin şərəfli tarixini bir araya gətirmək üçün atılan mühüm bir addımdır... *"Görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmməd ağa Şahtaxtlının anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi haqqında"* Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 27 fevral 2006-cı il tarixli, *"Şahtaxtinskilər Muzeyinin yaradılması haqqında"* 9 fevral 2010-cu il və *"Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında"* 2011-ci il 21 fevral tarixli sərəncamları dövlətçilik tariximizdə xüsusi yeri və xidmətləri olan Şahtaxtinskilərə göstərilən qayğının bariz nümunəsidir. Muzeydə 300-ə yaxın eksponat nümayiş etdirilir. Bu kəndin yetirməsi, məşhur rəssam Elmira Şahtaxtinskayanın ev-muzeyindən gətirilərək Şahtaxtinskilər Muzeyinə təqdim edilən eksponatlar buraya xüsusi ab-hava bağışlayır. Muzeyin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xüsusi vurğulamışdır: *"Ev-muzeyi bir məktəb olmalı, gənclər Şahtaxtinskilərin keçdiyi həyat yolunu, mübarizə yolunu öyrənməli və o yolu davam etdirməlidirlər. Ona görə ki, bu gün Azərbaycan dövlətinin müstəqilliyini daha da möhkəmləndirməyə ehtiyacı var. Bunun üçün hər kəs üzərinə düşən vəzifəni yerinə yetirməli, Şahtaxtinskilər kimi mübariz olmalıdır"*.

Məhəmməd ağanın xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərindəki Kitab evinə onun adı verilib. Muxtar respublikada fəaliyyət göstərən Ədəbiyyat Muzeyində və Cəlil Məmmədquluzadənin ev-muzeyində Məhəmməd ağa Şahtaxtlının həyat və fəaliyyətini əks etdirən guşə yaradılıb, gənc tədqiqatçılar onun elmi-pedaqoji və ədəbi-publisistik irsinin daha geniş şəkildə araşdırılmasına cəlb ediliblər. Sərəncamda nəzərdə tutulduğu kimi, AMEA-nın Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti Məhəmməd ağanın seçilmiş əsərlərini toplayıb nəşrini həyata keçiriblər. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, AMEA Naxçıvan Bölməsinin sədri, Milli Məclisin deputatı *İsmayıl Hacıyev* bildirdi ki, C.Məmmədquluzadə, H.Cavid, Ə.Qəmküsar kimi ziyalılarla yanaşı, *"Məhəmməd ağa Şahtaxtlının taleyi və sənəti"* kitabı da nəşr edilib.

### *Əbülfət ağanın qəbri və ya "Gənc Verterin iztirabları" sona yetdimi?*

Bu nəslin mübariz övladlarından biri – 1858-ci ilin oktyabrında Şahtaxtı kəndində anadan olan, ilk təhsilini Tiflis real məktəbində alan Əbülfət ağa 1877-ci ildə Sankt-Peterburq Texnologiya Universitetinə daxil olub və tələbə yoldaşı, ilk marksist Q.V.Plexanovla birgə tələbələri qadağan olunan yığıncaqlara təhrik etdiyinə görə bir il sonra universitetdən xaric edilib. Mənzilində aparılan axtarış zamanı məlum olub ki, Əbülfət ağa həm də Moskva və Peterburqda təhsil alan qafqazlı tələbələrin yaratdıqları *"İmdadiyyə"* adlı gizli dərnəyin üzvüdür. Bu dərnək 1878-ci ildə Həsən bəy Zərdabinin və Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə yaradılmışdı.

Əbülfət ağa Moskvada təhsil alan həmyerlisi Nəcəf bəy Vəzirova 1878-ci il 3 mart tarixli məktubunda yazırdı: *"Biz Şərq dünyası ilə Qərb dünyasını bir-birindən ayıran pərdəni qoparmaq istəyirik. Biz maarif günəşini və onun şüalarını öz tərəfimizə çevirməyə səy etməliyik ki, onun həyat bəxş edən hərarəti ilə isinib yaşayaq, donmayaq. Biz istibdadı atıb, proqressiv həyatla yaşamağa səy etməliyik. Biz ancaq onda öz qabiliyyətimizi başa düşə bilərik. Biz silah və imkan axtarırıqsa, demək, biz zəhmətkeş əlləri, qüvvənin özünü tərbiyələndirib yetişdirməliyik..."* Əbülfət ağa sonrakı taleyini hərbə bağladı: 1883-cü ildə Peterburq Yunkerlər məktəbinə daxil oldu və oranı fərqlənmə diplomu ilə bitirdi. 1904-1905-ci illərdə rus-yapon müharibəsində iştirak edən polkovnik Əbülfət ağa batalyon komandiri kimi məsul vəzifədə xidməti borcunu ləyaqətlə yerinə yetirmiş, istər ədəbi, istərsə də maarifçilik sahəsində xalqımız üçün təmənnasız xidmətlər göstərmişdir.

Cəmi 55 il ömür sürən Əbülfət ağa vətəndən uzaqlarda yaşayıb işləsə də, nə ana dilini, nə də mənsub olduğu İslam dinini unutdu. Bunu Azərbaycan Tarixi Muzeyində saxlanan, 1877-ci ildə fransız dilində nəşr olunmuş, Əbülfət ağanın vaxtilə Tbilisidə yaşayan qızı Qönçə xanıma məxsus "Quran" da sübut edir. Kitabın titul səhifəsinə Əbülfət ağa Şahtaxtinskinin şəxsi möhürü vurulub.

Polkovnik Əbülfət ağa Şahtaxtinski 1913-cü il martın 13-də Kutaisi şəhərində vəfat edib. Deyilənə görə, onun Şahtaxtıda dəfni böyük təntənə ilə keçib. Qatarla Tiflisdən Şahtaxtıya gətirilən Əbülfət ağanı Port-Artur qəhrəmanı kimi hərbi orkestrin müşayiəti ilə ailə nekropolunda torpağa tapşırıblar. Dəfndə bir sıra tanınmış insanlarla yanaşı, Məhəmməd ağa Şahtaxtlı da iştirak edirdi.

Vaxtilə dilimizə tərcümə etdiyi Getenin məşhur *"Gənc Verterin iztirabları"* əsərinin qəhrəmanı kimi, onun da həyatı belə sürətlə və qəflətən sona çatdı.

### *Gəmiqaya abidəsi və uzaq düşən gəmilərin kapitanları*

Naxçıvanda qədim bir yer var: Gəmiqaya adlanır. Bu nəslin böyük nümayəndələrindən biri olan xalq rəssamı Elmira Şahtaxtlı isə əsərlərindən birini belə adlandırıb: *"Uzaq düşən gəmilərin kapitanı"*. İlk baxışdan adi görünsə də, oradakı fikir və məna yükü olduqca böyükdür. Uzaq düşən gəmilərin kapitanları olmaqla, keçmişi bu günə daşımaq, tarix yaratmaq və bu tarixin içində yox olub getmək, bir sözlə, əfsanəyə çevrilmək və yorulmadan gecəli-gündüzlü hər cür uzağı yaxın eləmək, yüz illər boyu olduğu kimi, indi də bu nəslin tükənmək bilməyən borcu, vəzifəsi olaraq qalmaqdadır.

Xalq rəssamı Oqtay Sadıqzadənin xatirələrindən: *"...Mənim istirahətim elə işimdir. Ən dəhşətlisi odur ki, əlində heç bir işin olmasın, heç nə eləməyəsən, xüsusən bu yaşda, yəni qocalanda... Belə günlərimdə əlimi üzümə verib, yalnız xatirələrlə yaşamaqdan başqa yolum qalmır. Ancaq düşünürəm ki, Elmira da heç vaxt buna razı olmazdı. O, xəstəliyinin şiddətləndiyi son aylarda fırçasını yerə qoydu. Heç ruhdan düşmürdü. Ağrılarını uda-uda yeni əsərlərin eskizlərini cızırdı... Həmin duyğular, yəqin ki, məni də ömrümün sonunadək tərk etməyəcək. Bu gün – 85 yaşımın başa çathaçatında rəssamlıq mənim üçün yalnız peşə, məşğuliyyət deyil. Xatirələrimdən yorulanda rəsmlərimə, şəkil çəkməkdən yorulanda isə xatirələrimə sığınıram..."*

**Bəxtiyar QARACA,**
***"Azərbaycan" qəzeti,***
***2 sentyabr 2014-cü il***

# Şərurda payız-qış mövsümünə hazırlıq yüksək səviyyədədir

***Hələ ötən əsrin 70-ci illərində qışdan söhbət düşəndə tanışlarımdan biri danışırdı ki, babam bu fəsil üçün lazım olan ənənəvi hazırlıq işlərini başa çatdırandan sonra həmin işlərin üçdəbiri qədər də əlavə hazırlıq görür, xüsusən qış tədarükünün artırılması qayğısına qalırdı. Mən elə bilirdim ki, bu ehtiyat qışın sərt keçəcəyinə və ya yazın ləngiyəcəyinə görədir. Amma elə deyilmiş. Bir dəfə babamdan “qış qonaq-qarası üçün gördüyümüz tədarük ötən illərdəkindən yaxşı oldu” ifadəsini eşidəndə həmin ehtiyatın mənasını başa düşdüm.***

Yazının əvvəlində bir ağsaqqalın qış ehtiyatı toplayan zaman xüsusi bir məqama fikir verdiyini xatırlamağım və həmin məqamlarda “hələ ötən əsrin 70-ci illərində” ifadəsini işlətməyim təsadüfi deyil. Çünki rayon İcra Hakimiyyəti başçısının müavini Ələddin Məmmədovla payız-qış mövsümünə hazırlıq haqqında söhbət edəndə ondan maraqlı fikirlər eşitdim:

– İndi Şərur 15-20 il əvvəlki Şərur deyil. Ona görə də payız-qış mövsümünə hazırlıq məsələsi elə şəkildə təşkil olunmalıdır ki, bu hazırlıq muxtar respublikamızın və rayonumuzun ümumi inkişaf səviyyəsinə uyğun olsun. Rayonda o qədər tikinti-quruculuq, abadlıq işləri görülüb ki, indi kiminsə diqqətsizliyi üzündən hansısa işin yarımçıq şəkildə görülməsi Şərurun bugünkü nüfuzu ilə üst-üstə düşə biləcək hal deyil. Məlumdur ki, avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirildi. Müşavirədə yeni mövsümə hazırlıqla bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verildi. Rayon İcra Hakimiyyətində keçirilən yığıncaqda da bu məsələ geniş müzakirə olundu və tədbirlər planı təsdiqlənərək aidiyyəti üzrə bütün qurumlara göndərildi. Tədbirlər planı hazırlanarkən ötən illərin təcrübəsi xüsusilə diqqət mərkəzində olub.

İcra başçısının müavini “Şərur indi 15-20 il əvvəlki Şərur deyil” fikrini təsadüf işlətmədi. Çünki nə 35-40 il əvvəlki qonaq-qaramızla indiki qonaq-qaramızın sayı müqayisə edilə bilər, nə də qonaqların təmsil etdiyi coğrafiya ilə. Qərəz, Şərur, sözün həqiqi mənasında, qışa yüksək səviyyədə hazırlaşır və bu da hamıda məmnunluq hissi yaradır.

Kommunal Müəssisələri Kombinatının direktor əvəzi Əsəd Rzayevlə söhbətimizdə məlum oldu ki, Şərurda payız-qış mövsümünə hazırlıq işlərinin böyük həcmi məhz bu qurum tərəfindən reallaşdırılır. Əsəd müəllim qeyd etdi ki, bizim bu sahədəki təcrübəmiz kimi, məsuliyyətimiz də ildən-ilə artır. Növbəti qış mövsümünə də xüsusi olaraq hazırlaşırıq. Çünki Şərurda heç zaman indiki kimi inkişaf da olmayıb, müasirləşmək də. İnkişaf və müasirləşmə olan yerdə isə sakinlərə göstərilən hərtərəfli xidmət də yüksək səviyyədə olmalıdır. 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar bizim müəssisəyə məxsus nasaz maşın və mexanizmlər təmir olunur, qışın sərt sınaqlarından problemsiz çıxmaq üçün lazım olan bütün addımlar atılır. Küçələri qardan və buzdan təmizləmək üçün 2 ədəd təkərli buldozer-traktor hazır vəziyyətə gətirilib. Müəssisəmizin məişət tullantılarının daşınması üçün 3 ədəd xüsusi təyinatlı maşını var. Şərur şəhərinə və rayonumuzun bütün kəndlərinə ayrılmış yerlərə 496 ədəd təmizləyici qutu qoymuşuq. Məişət tullantılarını daşımaq üçün 16 ədəd də əlavə lafet və avtomobil icarəyə götürmüşük. Küçə və səkiləri buz və qardan təmizləmək üçün lazımi qədər avadanlıq, alət, texniki duz və qum tədarük edilib. Şərur şəhərinin işıqlandırılmasında fasilələrə yol verilməməsi üçün işıq dirəkləri və elektrik xətləri yenidən nəzərdən keçirilir, ehtiyac olan bütün təmir işləri aparılır.

Qış aylarında rayon mərkəzinin və kənd əhalisinin içməli su ilə təchizatının yaxşılaşdırılması üçün mövcud xətlərin və qurğuların yenidən qurulması, subartezian quyularının təmir olunması, yeni su xətlərinin çəkilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Məqsəd ondan ibarətdir ki, qışda da içməli su sarıdan heç bir problem yaşanmasın.

Şərur şəhərində 17 çoxmərtəbəli yaşayış binası var. Bu yaşayış binaları biri mərkəzləşdirilmiş olmaqla, 15 qazanxana ilə qızdırılır. Ümumiyyətlə, rayondakı 64 inzibati bina, 41 təhsil, 41 tibb və 69 mədəniyyət müəssisəsi istilik sistemi ilə təchiz olunub. Bunun üçün 157 fərdi qazanxana mövcuddur. Odur ki, qış mövsümündə qazanxanaların fasiləsiz işini təmin etmək məqsədilə onların elektrik enerjisi, təbii qaz və su ilə təchizatı məsələlərinə xüsusi diqqət yetirilir, istilik sistemlərinin dayanıqlılığına və qazanxanaların texniki normalar çərçivəsində istifadəsinə diqqət artırılır.

Bu il 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyalarının istifadəyə verilməsi ilə Şərurun enerji təminatı xeyli yaxşılaşıb. Mövsümə hazırlıqla əlaqədar elektrik xətlərində dayaqlararası məsafələrin standartlara uyğunluğu yoxlanılıb, istifadə müddəti başa çatmış elektrik dirəkləri və elektrik xətləri yenilənib, sayğacdankənar elektrik enerjisindən istifadə hallarının qarşısının alınmasına nəzarət gücləndirilib. Həmçinin qış aylarında yarana biləcək hər hansı nasazlığın vaxtında aradan qaldırılması üçün lazımi mal-material ehtiyatı yaradılıb.

Elektrik enerjisinin verilməsi ilə yanaşı, rayon əhalisinin təbii qaza olan ehtiyacının ödənilməsi də günün vacib məsələlərindəndir. Payız-qış mövsümünə hazırlıqla bağlı həyata keçirilən tədbirlər sırasında bu qurumun da xidməti kifayət qədərdir. Bölgənin soyuq aylarda təbii qaza gündəlik ehtiyacı 92-93 min kubmetrə çatır. Rayonun Qaz İstismarı İdarəsi bu tələbatın ödənilməsi üçün işə məsuliyyətlə yanaşaraq lazımi tədbirlər görür. Hazırda qazpaylayıcı şəbəkə sisteminin hazırlanması, korroziyaya uğramış qaz xətləri hissələrinin dəyişdirilməsi, təmir olunması, yeni qaz xətlərinin çəkilməsi istiqamətində müvafiq iş aparılır. Bütün bu tədbirlər qarşıdan gələn payız-qış mövsümündə hər hansı bir problemin yaranmasının qarşısının alınmasına xidmət edir.

Qışda fasiləsiz nəqliyyat xidmətinin təmin edilməsi də mühüm məsələlərdən sayılır. Odur ki, əhalinin kəndlərə rahat gediş-gəlişini təmin etmək üçün marşrut avtobuslarının qrafikə uyğun hərəkəti indidən diqqət mərkəzindədir. Məlumat üçün bildirək ki, cari ildə Kürkənddən keçən 4 kilometrlik daxili yol, 11 kilometrlik Dizə-Axura yolu, Püsyan kəndini Sədərək-Naxçıvan avtomagistralına birləşdirən 3 kilometrlik, həmçinin 6 kilometrlik Püsyan-Xanlıqlar yolları yenidən qurulur və bu, sözsüz ki, qışda həmin istiqamətlərdə gediş-gəlişi asanlaşdıracaqdır. Bundan əlavə, qış aylarında yollarda baş verə biləcək problemlərin qısa vaxtda aradan qaldırılması üçün rayon Yol İstismarı İdarəsinin mövcud maşın-mexanizmləri hazır vəziyyətə gətirilib və lazımi qədər qum ehtiyatı yaradılıb.

Rayonda əhalinin dayanıqlı rabitə ilə təmin olunması, rabitə xidmətinin yüksəldilməsi məsələsi də diqqətdə saxlanılır, bu məqsədlə görülən işlər tədbirlər planına uyğun aparılır. Rayon Rabitə İdarəsi tərəfindən qəza hallarının qarşısını almaq üçün ehtiyat hissələrin əldə edilməsi işinin bütün il boyu nəzarətdə olmasına baxmayaraq, mövsümdə elektrik kəsintiləri, normadan fərqli elektrik verilişləri zamanı baş verə biləcək hadisələrin qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər davam etdirilir.

Qeyd edək ki, xətt təsərrüfatının normativə uyğunlaşdırılması, rabitə kabellərinin elektrik xətləri ilə təhlükəli kəsişmələri qaçılmaz olan yerlərdə yeraltı keçid, yaxud rezin borulardan istifadə edilməsi, rayon mərkəzində və kəndlərdə quruculuq işləri ilə əlaqədar yeraltı rabitə qurğularının tikilməsi, rabitə xətlərinin yer altına keçirilməsi həm kabellərin istismar müddətinin xeyli uzanmasına, həm də qəza hallarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olub. Qış aylarında generatorlara və akkumulyatorlara ehtiyac artdığından bir neçə ildir ki, bu avadanlıqlara mərkəzləşmiş qaydada ixtisaslı mütəxəssislər tərəfindən xidmət göstərilir. Avadanlıqlara vahid mərkəzdən xidmət edilməsi qeyri-peşəkar müdaxilənin qarşısını alır, nəticədə, avadanlıqlar daim saz olur, daha uzun müddət istismar edilə bilir.

Əhalinin payız-qış mövsümündə meyvə və tərəvəzlə təminatını yaxşılaşdırmaq, qiymətləri sabit saxlamaq üçün də lazımi tədbirlər görülür. Şərurdakı 840 ton tutumu olan 4 soyuducu anbarda tələbatdan artıq istehsal edilən məhsulların qəbuluna başlanması buna imkan verəcək. Hələlik həmin anbarlara 300 tona yaxın kartof tədarük edilib.

***...Sentyabrın ilk günləri olmasına baxmayaraq, Şərurda havalar hələ ki, isti və yağmursuz keçir. Ona görə də Kommunal Müəssisələri Kombinatının direktor əvəzi Əsəd Rzayevə dedim ki, bu qədər hazırlıqdan sonra, deyəsən, bu il qış mülayim olacaq. Həmsöhbətim bu zarafatı bir qədər ciddi qəbul elədi: “Yox, yarısı aran, yarısı dağlıq zonada yerləşən Şərur elə bir rayondur ki, Allah buradan heç nəyi əsirgəməyib. Elə qışı da əsirgəməz. Qar da olacaq, soyuqlar da, küləklər də. Siz də şahidi olacaqsınız ki, biz o sınaqlardan necə üzüağ çıxacağıq”.***

***Təki belə olsun.***

**Cəfər ƏLİYEV**

***İnkişaf etmiş dövlətlərin təcrübəsi sübut edir ki, iqtisadiyyatın sabit tempini qorumaq üçün yerlərdə sahibkarlığın inkişafı və onun rolunun artırılması, müasir infrastrukturun yaradılması iqtisadi siyasətin prioritet məsələlərindən biri olmalıdır. Bu məqsədlə muxtar respublikamızda da sahibkarlıq mühitinin formalaşması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.***

*İstehsal müəssisələri*

# “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətində yeni çeşidlərdə yerli ərzaq məhsulları satışa çıxarılır




Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi özəl sektorun Ümumi Daxili Məhsuldakı payının ilbəil artması ilə müşahidə olunur. Bu artım, öz növbəsində, daxili bazarın yerli istehsal hesabına keyfiyyətli məhsullarla təmin olunmasına rəvac vermişdir. 1995-1996-cı illərdə yalnız 4-5 növ məhsula olan tələbatın az bir hissəsinin yerli istehsal hesabına ödənildiyi muxtar respublikamızda hazırda yeni yaradılmış və ya fəaliyyəti bərpa olunmuş müəssisələrdə 116 növdə ərzaq, 233 növdə qeyri-ərzaq olmaqla, cəmi 349 növdə məhsul istehsal olunur. 107 növdə ərzaq, 227 növdə qeyri-ərzaq olmaqla, cəmi 334 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Naxçıvan şəhərində fəaliyyət göstərən “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti də özəl bölmənin, sahibkarlıq fəaliyyətinin inkişafına yaradılan şəraitdən, göstərilən dövlət qayğısından bəhrələnmiş, sənaye şəhərciyi üçün ayrılmış ərazidə inzibati və satış şöbəsi binaları, istehsal sahələri, yeməkxana, anbar tikilib istifadəyə verilmişdir.

1998-ci ildə qənnadı sexi ilə fəaliyyətə başlayan müəssisənin maliyyə imkanı artdıqca fəaliyyəti genişləndirilmiş, kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi, qovrulması və paketlənməsi istehsal sahəsi istifadəyə verilmişdir. Burada gün ərzində 10 ton məhsul istehsal etmək mümkündür. Qovurma avadanlığının gündəlik istehsal gücü 4-4,5 ton, paketləmə avadanlığının gücü isə 3,5 tondur. Daha müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla daxili bazarın tələbatına uyğun müxtəlif çeşiddə məhsulların istehsalı da diqqət mərkəzində saxlanılmış, qənnadı sexində Türkiyə Respublikasından alınmış istehsal gücü dəqiqədə 200-300 ədəd doğranmış qəndi tək və cüt paketləyən, istehsal gücü gündə 200-300 kiloqram lokum, kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi, qovrulması və paketlənməsi sexində isə istehsal gücü saatda 50 kiloqram qarğıdalı çubuğu olan müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. İstehsal olunan şəkərli, duzlu və ədviyyatlı qarğıdalı çubuqları 20, 40, 100 və 200 qramlıq paketlərdə, “Partapart” adlı partladılmış qarğıdalı 70 qramlıq, qara günəbaxan tumu 35, 100, 150 qramlıq, ağ günəbaxan tumu isə 35, 70, 100, 130, 200, 400 qramlıq paketlərdə, tək və cüt paketlənmiş qənd 150, 750 qramlıq və 4 kiloqramlıq, çərəzli və meyvəli lokum isə nəfis tərtibatla bəzədilmiş 300 və 600 qramlıq taralarda satışa çıxarılır. Hazırda qənnadı sexində 5 çeşiddə qənd və 2 çeşiddə lokum istehsal olunur. Müəssisədə istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, yerli əhalidən alınır ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir. Yəni torpaq mülkiyyətçiləri istehsal etdikləri lobya, noxud, günəbaxan, balqabaq tumu və başqa kənd təsərrüfatı məhsullarını müəssisəyə təhvil verməklə gün-güzəranlarını daha da yaxşılaşdırırlar. Sahibkarlıq fəaliyyətinin inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, daxili bazarın keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaratmaqla bərabər, xaricdən idxal edilən, mənşəyi məlum olmayan, keyfiyyətsiz məhsulların muxtar respublikamıza idxal olunmasının qarşısını alır. Məlumat üçün qeyd edək ki, müəssisədə istehsal olunan yerli məhsullara alıcıların cəlb edilməsi və həvəsləndirilməsi də mühüm əhəmiyyətli sahə kimi diqqətdə saxlanılmış, cari ilin iyun ayından “Qazanmağa tələsin” stimullaşdırıcı lotereya adı altında müəssisədə istehsal olunan “Partapart” adlı partladılmış qarğıdalı, qara və ağ günəbaxan tumları qablaşdırılmış paketlərdə 1 manatdan 1000 manatadək uduş kampaniyası həyata keçirilir. Uduş kampaniyası sentyabr ayının 30-dək davam edəcək.

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyəti genişləndirilən müəssisədə istehsalın həcminin artırılması ilə əlaqədar əlavə işçi qüvvəsi cəlb olunmuşdur. 10 nəfər işçi qüvvəsi ilə fəaliyyətə başlayan müəssisədə hazırda 190 nəfər çalışır ki, onlar da yüksək əməkhaqqı və xüsusi geyim formaları ilə təmin edilmişlər.

Müəssisədə sanitar-gigiyenik və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. Burada fəaliyyət göstərən 2 istehsal sahəsinin hər birində Türkiyə istehsalı olan avadanlıqlar quraşdırılmış, istehsal prosesi avtomatlaşdırılmışdır. Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsalı ilə yanaşı, məhsulun quruluşunun, dizaynının yüksək səviyyədə olması və ekoloji cəhətdən təmiz şəraitdə qablaşdırılması da diqqət mərkəzində saxlanılır. Müəssisədə 35 adda, 88 çeşiddə məhsul istehsal olunaraq müxtəliftutumlu taralarda qablaşdırılır. Məhsullar Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qeydiyyata alınmış “Ləzzət” əmtəə nişanı ilə müəssisənin balansında olan maşınlarla Naxçıvan şəhərində və ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə paylanılır.

**Kərəm HƏSƏNOV**

# Sığorta fəaliyyəti genişlənməkdədir

Muxtar respublikada sığorta fəaliyyətinin genişləndirilməsi və vətəndaşların sığorta xidmətləri ilə tam təmin olunması istiqamətində səmərəli işlər davam etdirilməkdədir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, ötən ilin ilk səkkiz ayı ilə müqayisədə cari ilin müvafiq dövründə sığorta tədiyyələrinin toplanması və müqavilələrin bağlanması istiqamətində 10,2 faiz artım müşahidə olunmuşdur.

Nəqliyyat, daşınmaz əmlak, əmlak sığortası, insanların həyatına və sağlamlığına dəymiş zərərlər üzrə və digər sığorta növləri üzrə ödənilən sığorta məbləğləri isə 22,2 faiz artmışdır. Başqa sözlə, sığorta fəaliyyətinin genişlənməsi ilə vətəndaşların sığortanın faydalarından bəhrələnməsi imkanları da artmaqdadır.

**Xəbərlər şöbəsi**




*Bu günlərdə "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının növbəti sayı çapdan çıxıb. Ümummilli lider Heydər Əliyevin "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq" fikirlərinin işığında nəşr olunan jurnalda bu dəfə də oxuculara maraqlı materiallar və məqalələr təqdim edilib.*

## "Naxçıvan" jurnalının növbəti sayı Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunub

Jurnalda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 14 yanvar 2014-cü il tarixli Sərəncamı, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ölkə Prezidentinə 7 yanvar 2014-cü il tarixli müraciəti, "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 yanvar 2014-cü il tarixli Sərəncamı və həmin Sərəncamla təsdiq olunmuş Tədbirlər Planı oxuculara təqdim olunur. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ölkə Prezidenti cənab İlham Əliyevə 7 yanvar 2014-cü il tarixli müraciətini Naxçıvan tarixinin böyük proqramı hesab etmək olar. Milli dövlətçilik nöqteyi-nəzərindən Naxçıvanın əhəmiyyətini, sözün tam mənasında, ortaya qoyan müraciətdə muxtariyyət dövrü tarixinin dövrləşdirilməsi ilə bağlı son söz deyilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki nitqi Naxçıvanın keçdiyi tarixi inkişaf yoluna verilən böyük siyasi-tarixi qiymətdir. Ölkə Prezidentinin nitqinin jurnalda təqdim olunmuş tam mətnində Naxçıvanın gələcək inkişafı ilə bağlı fikirlər də diqqət çəkir: "Sözün düzü, hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışının mətni də jurnalın oxucularına təqdim edilib. Bu çıxışı isə Naxçıvanın son 18 ildəki intibah dövrünün ali hesabatı hesab etmək mümkündür.

Jurnalın 28-ci sayında AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvanın muxtariyyət statusu naxçıvanlıların inadlı mübarizəsi nəticəsində əldə edilmişdir", AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərlinin "Muxtariyyət ərəfəsində Naxçıvanın erməni təcavüzündən qorunmasında əhali amili", Vəli Baxşəliyevin "Naxçıvan Milli Komitəsinin müstəqillik uğrunda mübarizəsi", Qadir Qədirzadənin "Muxtariyyət ərəfəsində Naxçıvan və çevrəsində erməni zülmü (Osmanlı arxiv mənbələri əsasında)", türkiyəli tarixçi, tarix elmləri doktoru İbrahim Ethem Atnurun "İmperialist güclərin Ermənistan naminə Naxçıvana yiyələnmək cəhdləri (1919-1920)", rusiyalı tədqiqatçı, tarix elmləri namizədi Oleq Kuznetsovun "1921-ci il Moskva və Qars müqavilələrinə görə Naxçıvanın beynəlxalq hüquqi statusu (müqayisəli-hüquqi təhlil)" məqalələri də Naxçıvan tarixinin fundamental tədqiqi baxımından xüsusi maraq doğurur. Qeyd etmək lazımdır ki, təqdim edilən elmi məqalələrdə Azərbaycan, türk, rus, ingilis, fransız dillərində olmaqla, çoxsaylı arxiv sənədlərinə, elmi ədəbiyyat nümunələrinə, dövrü mətbuat səhifələrindən götürülmüş faktlara istinad edilmişdir. Jurnalda həmçinin müxtəlif fotoşəkillər və tarixi sənədlərin fotosurətləri də oxuculara təqdim olunmuşdur.

Tarixi Naxçıvan

## Muxtariyyətin 9 kəndi

***"Biz bu məsələni Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirə etdik. Məlum oldu ki, təkcə 1929-cu ildən sonra Naxçıvan Muxtar Respublikasının ərazisindən 625 kvadratkilometr torpaq sahəsi, yəni 9 kənd Ermənistana verilib. Bu isə 62 min hektar kənd təsərrüfatına yararlı torpaq deməkdir".***

Bu tarixi faktı yeni tariximizin ən qanlı-qadalı illərində – Azərbaycanın müstəqilliyini elan etməsindən daha əvvəl – 1991-ci il fevral ayının 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasındakı çıxışında ulu öndər Heydər Əliyev cəsarətlə önə çəkmişdi. O zaman təkcə bu ciddi tarixi fakt haqqında nəinki danışmaq cəsarəti, heç faktın özü haqqında məlumat da çoxumuzda yox idi.

Tarixi Azərbaycan ərazilərinin hissə-hissə Ermənistana verilməsinin tərkib hissəsi olan bu fakt həm də qardaş Türkiyə ilə Azərbaycan arasında sərhəd xəttinin itirilməsinə xidmət etməli idi. 1929-cu ildə Naxçıvanın 9 kəndini Ermənistana verməyə nail olan imperiya idarəçiliyi az sonra daha böyük "cəsarət" nümunəsi göstərərək 1938-ci ildə Sədərək və Kərki kəndlərinin bir hissəsini Ermənistana vermişdir. Tarixi yaddaşın təzələnməsi, əsrlərdən bəri bizə məxsus olan torpaqlarımıza sahiblik hissinin unudulmaması üçün bu faktı xatırlamaq da, xatırlatmaq da vacibdir.

Naxçıvanın muxtariyyətini rəsmi şəkildə əldə etməsindən 5 il 9 gün sonra – 1929-cu il fevral ayının 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi totalitar inzibati-amirlik şəraitində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 9 kəndinin – Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, az sonra isə Kilit kəndinin torpaqlarının bir hissəsinin əkin sahələri ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdi. Bəs sadaladığımız bütün bu kəndlər hansı coğrafiyada yerləşirdi və onlar haqqında nə bilirik?

İndi Ermənistanın Yexeqnadzor rayonunun tərkibinə aid edilən Qurdqulaq kəndi həm 1918-1919-cu illərin qırğınlarının şahidi olmuş, həm də 1948-1953-cü illərin deportasiyasının acı nəticələrini yaşamışdır. Qurdqulaq adından da məlum olduğu kimi ora tarixən azərbaycanlılara məxsus bir kənd olmuşdur. Kənd haqqında bəhs edən H.Mirzəyev "Qərbi Azərbaycanın Dərələyəz mahalı" kitabında toponimin qədim türk dillərində olan iki sözün birləşməsindən yarandığını qeyd etmişdir. Qurd dərəsi adlanan dərədə yerləşən kənd Amağu, Qabaxlı, Zeytə və Xaçik kəndləri ilə həmsərhəd olmuşdur. Kəndin Ermənistana verilməsindən sonra burda azərbaycanlı əhali məqsədli şəkildə sıxışdırılmağa başlanmış və 1949-cu ildə, demək olar ki, kəndin yerli əhalisinin əksəriyyəti deportasiya edilmişdir.

O zaman Ermənistana birləşdirilən digər bir tarixi yurd yerimiz isə Şərur rayonu ilə tam sərhəddə yerləşən Xaçik və ya Xaçın kəndidir. Tarixən Kəngərlilər nəslindən çıxmış sultanlara və bəylərə məxsus olan bu kənd 1828-ci ildən sonra strateji əhəmiyyətinə görə məqsədli şəkildə erməniləşdirilməyə başlanmışdır. Eyni aqibəti yaşayan digər bir tarixi Azərbaycan kəndi Horadiz də məhz bəhs olunan dövrdə əsassız olaraq Ermənistana verilmiş və faktiki olaraq həyata keçirilən bir neçə beynəlxalq Moskva və Qars razılaşmalarının müddəalarını pozmuşdu. 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə kənddə müsəlman əhalisi ilə yanaşı yaşayan cəmi 3 qeyri-müsəlman ailə başçısının adı çəkilirdi.

XX əsrin 20-ci illərinə qədər Şərur-Dərələyəz mahalının Şahbuz nahiyəsinə daxil olan Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran kəndlərinin Ermənistana verilməsi də səssiz işğalın acı nəticələrindəndir. 1918-ci ildə erməni hücumları nəticəsində dağıdılan, əhalisi kütləvi qırılan kəndlərdən biri olan Oğbində XX əsrin 30-cu illərinə qədər ağır şərtlər altında da olsa, azərbaycanlı əhali yaşamışdır.

1590-cı ilə aid "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə adı xatırlanan Sultanbəy kəndinə erməni əhalisinin köçürülməsi XIX əsrin 30-cu illərinə təsadüf edir. Əsasən, İran ərazisindən köçürülən ermənilər çar hökumətinin məqsədli siyasəti nəticəsində bu kənddə də yerləşdirilmiş, 1918-ci ildə azərbaycanlılara qarşı burada qanlı qırğınlar törədilmişdir. 1929-cu ildə kəndin Ermənistana verilməsindən daha da ilhamlanan Ermənistan hökuməti 3 yanvar 1935-ci ildə kəndin adını dəyişdirmişdir.

Horadiz kəndi ilə həmsərhəd olan Ağxaç (Ağxəç) kəndi də digər kəndlərin aqibətini yaşamışdır. 1929-ci ildən sonra bu türk yurdundan da onun gerçək sahibləri didərgin salınmışdır.

1946-cı ildə adı dəyişdirilən Almalı kəndinin sakinləri də məhz azərbaycanlılar olmuş və hətta kəndin Ermənistana verilməsindən sonra da burada azərbaycanlı ailələr yaşamışlar. Almalı ilə həmsərhəd olan İtqıran kəndinin azərbaycanlı əhalisinin buradan uzaqlaşdırılması, zorla qovulması 1918-ci ildə erməni quldur dəstələrinin əli ilə həyata keçirilmişdir.

1929-cu ildə Ordubad dairəsinin Qorçevan kəndinin, 1930-cu ilin əvvəllərində isə Manna və Midiya dövrü tarixinin izlərini özündə yaşadan Kilit kəndinin torpaqlarının bir hissəsinin Ermənistana faktiki olaraq sovet hökuməti tərəfindən "hədiyyə" edilməsi həm ərazilərimizə, həm də tariximizə təcavüz nümunəsidir.

***Unutmamalı olduğumuz məqam isə ondan ibarətdir ki, XX əsrin 20-30-cu illərində beynəlxalq hüquqa zidd olaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikasından qoparılaraq Ermənistana verilmiş bu torpaqlar bizimdir. Unutmamaq yenidən qayıdışın başlanğıcıdır.***

Elnur KƏLBİZADƏ

## Tikinti obyektlərində texniki təhlükəsizliyin təmin edilməsi diqqət mərkəzindədir

*Tikinti-quruculuq işlərinin aparılması ölkəmiz üçün nə qədər vacibdirsə, Azərbaycanın ən qiymətli sərvəti olan insanların sağlamlığının qorunması ondan da vacibdir. Ona görə də insanların təhlükəsizliyi daim dövlətimizin diqqət mərkəzindədir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisində bu ilin fevral ayında tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirlərinə həsr olunmuş müşavirə keçirilmişdir. Adıçəkilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: "Ötən müddət ərzində bu sahədə bir çox işlərin görülməsinə baxmayaraq, hələ də bəzi çatışmazlıqlar mövcuddur. Aparılan yoxlamalar zamanı son illər istifadəyə verilmiş yeni tikililərin çoxunda nöqsan və çatışmazlıqlar aşkara çıxarılmışdır. Bu, onu göstərir ki, tikinti aparan təşkilatlar tərəfindən tələskənliyə yol verilir və tikinti zamanı təsdiq edilmiş standartlara əməl olunmur. Keyfiyyətə xüsusi diqqət yetirilməməsi, yaxud tikilələrin lazımi qaydada qorunmaması səbəbindən istifadəyə verildikdən sonra onların bir çoxunda təmirə ehtiyac yaranır".

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin də qarşısına qoyulan vəzifələrin icrası istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Binaların və qurğuların fövqəladə hallardan mühafizəsi, tikintidə təhlükəsizliyin təmin olunması ilə bağlı bir sıra işlər görülüb, bütün istehsal sahələrində, xüsusilə tikintilərdə olan mexanizm və avadanlıqların istifadədən əvvəl sınaqdan, texniki təhlükəsizlik ekspertizasından keçirilməsi təmin edilib. Hazırda bu işlər davam etdirilir.

Tikinti sektorunda təhlükəsizliyə nəzarət Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən həyata keçirilir. İdarənin fəaliyyəti dövründə ərazilərin, binaların və qurğuların fövqəladə hallardan mühafizəsi, tikintidə təhlükəsizliyin təmin olunması, insanların həyatı, sağlamlığı və əmlakı üçün potensial təhlükə yarada biləcək tikinti işlərinin qarşısının vaxtında alınması sahəsində müxtəlif tədbirlər görülmüşdür.

Ötən dövr ərzində mühəndis-geoloji işlərin aparılması ilə bağlı 56 obyekt ərazisindən quyu və şurf qazma üsulu ilə qrunt nümunələri götürülmüş, idarənin Mühəndis-geoloji, sement və beton laboratoriyasında analizi aparılmış və hesabatlar hazırlanaraq Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunmuşdur.

Obyektlərin layihələndirilməsi mərhələsində 78 obyektin tikintisi ilə bağlı layihələndirilmiş obyektlərin layihə-smeta sənədləri ekspertizadan keçirilmiş və obyektlərin tikintisi üçün işçi layihələrə müvafiq rəylər verilmişdir.

Tikintidə istifadə olunan tikinti materiallarının dövlət standartlarına uyğunluğunun yoxlanılması və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı idarənin Mühəndis-geoloji, sement və beton laboratoriyasında 248 sınaq və analiz keçirilmiş, müvafiq protokollar hazırlanmışdır.

Tikinti dövrü tikintidə istifadə olunan tikinti material və konstruksiyalarının laboratoriya şəraitində keyfiyyətinin yoxlanılması ilə yanaşı, səyyar üsulla tikinti obyektlərində dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmlik göstəricisi yoxlanılmışdır.

Ötən dövr ərzində tikinti obyektlərində, ümumilikdə, 390 dəfə tikinti norma və qaydalarının tələblərinə, razılaşdırılmış və təsdiq edilmiş memarlıq və tikinti layihələrinin icrasına əməl edilməsi, tikinti işlərini həyata keçirən məsul şəxslər tərəfindən qüvvədə olan norma və standartların tələblərinə əməl olunması yoxlanılmış, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır.

Bütün bunlar onu deməyə əsas verir ki, tikinti obyektlərində texniki təhlükəsizliyin təminatı daim diqqət mərkəzindədir. Görülən işlər sırasında maarifləndirici tədbirləri də qeyd etmək lazımdır. Belə tədbirlərdə əsas məqsəd tikinti, əsaslı təmir, yenidənqurma və bərpa işləri zamanı tikinti aparan sifarişçilər və inşaat işlərini yerinə yetirən şəxslər tərəfindən tikinti norma və qaydalarına riayət olunmasını izah etmək, insanların həyatı, sağlamlığı və əmlakı üçün təhlükə yaradan risklərin vaxtında qarşısını almağın vacibliyini göstərmək, yüksək tikinti mədəniyyətini formalaşdırmaqdan ibarətdir.

**Əbülfəz QAFAROV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov və nümayəndəliyin kollektivi iş yoldaşları Məhərrəm Lətifova əzizi
**SƏKİNƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova və mərkəzin Cərrahiyyə şöbəsinin kollektivi İlhamə Nəsirovaya və Cabir Hüseynova, əzizləri
**HÜSEYNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Aysel İsmayılova, Bilqeyis Ələsgərova, Zəkiyyə Salmanova, Zülfiyyə Hüseynova və Sevinc Məmmədova İlhamə Nəsirovaya və Cabir Hüseynova, əzizləri
**HÜSEYNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin kollektivi iş yoldaşları Əhliman Cabbarova, atası
**HƏMİD CABBAROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Şərq qapısı" qəzetinin kollektivi qələm yoldaşları Səxavət Kəngərliyə, qardaşı
**MUXTARIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Nüşabə Əliyeva, Nəzakət Gülməmmədova, Bəhriyyə Əliyeva, İradə Əsgərova və Bəhriyyə Novruzova İlhamə Nəsirovaya və Cabir Hüseynova, əzizləri
**HÜSEYNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Elnarə Məmmədovaya, babası
**HƏMİD CABBAROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 752